RUZƏ İBİŞOVA

# ƏBƏDİYYƏT NOTLARI

*Azərbaycanın xilaskarı, bütün sahələr kimi, musiqimizin də inkişafında həlledici rolu olan ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə ithaf edirəm.*

Bakı-2011

## KEÇƏÇİ OĞLU MƏHƏMMƏD



Azərbaycan muğam sənəti tarixində müstəsna yeri olan xanəndələrimizdən biri də Keçəçi oğlu Məhəmməddir.

Keçəçi oğlu Məhəmməd (Məhəmməd Məşhədi Xəlil oğlu) 1864-cü ildə Şuşada anadan olmuşdur. Atasının keçəçilik peşəsinə görə xalq arasında «Keçəçi oğlu» adı ilə tanınmışdır.

Bir gün görkəmli musiqişünas Xarrat Qulu Məşhədi Xəlilin dükanının yanından keçərkən bir gəncin zümzüməsini eşidir. Onun kimliyini öyrənir, muğam sənətinə sonsuz həvəsini görüb, öz məktəbinə dəvət edir. Məhəmməd burada xanəndə Məşhədi İsidən və Xarrat Quludan dərs alaraq xalq musiqisinin, muğamatın sirlərinə bələd olur.

Keçəçi oğlu Məhəmməd bundan sonra Şuşanın səfalı yerlərində qurulan məclislərdə mütəmadi olaraq oxumuşdur. Seyid Şuşinski xatirələrində qeyd edir ki, onun üzünü görməyib ifasını dinləyənlər Məşhədi İsi olduğunu zənn edirmişlər. Ustadının vurduğu xalları və guşələri məharətlə yerinə yetirirmiş.

Keçəçi oğlu Məhəmməd ilk dəfə Bakıda 1902-ci ildə çıxış etmiş, «Şüştər» muğamını böyük ustalıqla oxumuşdur. «Kaspi» qəzeti bu barədə yazmışdır: «Xanəndə Məhəmməd «Şüştər» muğamını incə bir səslə və ürəkdən elə gözəl oxudu ki, dinləyicilərin məhəbbətini daha çox qazandı».

Həmin konsertdə Məhəmməd Füzulinin «Leyli və Məcnun» poemasından Keçəçi oğlu Məhəmmədin Cabbar Qaryağdıoğlu ilə

birgə ifa etdiyi duet hərarətlə qarşılandı. Məhz bu konsert Azərbaycanda milli operanın yaranmasına zəmin yaratmışdır.

Keçəçi oğlu Məhəmməd klassik muğamlardan «Nəva», «Mahur», «Mani» və «Bayatı-Qacar»ı orijinal bir şəkildə ifa etmişdir. Azərbaycan musiqi tarixində ritmik muğamları Keçəçi oğlu Məhəmməd səviyyəsində oxuyan xanəndə çox deyil. O, yüksək səs diapazonuna malik idi. Sənətkarı müşayiət edən kamança ifaçıları qeyd edirdilər ki, Keçəçi oğlu Məhəmmədin səsi o qədər zil idi, kamançanın hər yerində oxumağı bacarırdı.

1912-ci ildə Keçəçi oğlu Məhəmməd Moskvada «Metropol» mehmanxanasının zalında Cabbar Qaryağdıoğlu, Məşhədi Məmməd Fərzəliyev və Davud Səfiyarovun iştirakı ilə «Şərq konserti» vermişdir.

Keçəçi oğlu Məhəmmədin ifasında «Heyratı», «Rahab», «Kürdü-Şahnaz» muğamları, «Getdi, gəlmədi», «Gülə-gülə», «Xuraman», «Axşam oldu», «Leyli» təsnif və mahnıları sevilə-sevilə dinlənilirdi. Son dərəcə zil səsə malik olan Keçəçi oğlu Məhəmməd bütün muğamların ifasının öhdəsindən bacarıqla gəlmişdir. Onun şirin xalları, zərif guşələri və cəhcəhli zəngulələri hər kəsi asanlıqla təsiri altına sala bilirdi.

Keçəçi oğlu Məhəmməd 1921-ci ildə «Təşviqat qatarı» ilə Azərbaycanın bir çox rayonlarında olmuş, əhali qarşısında verilən konsertlərdə iştirak etmişdir.

1926-cı ildə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə Keçəçi oğlu Məhəmməd Azərbaycan Dövlət Konservatoriyasına dəvət edilir. O, burada Cabbar Qaryağdıoğlu və Seyid Şuşinski ilə yanaşı gənc xanəndələrin muğam sənətini dərindən öyrənmələri üçün böyük zəhmət sərf edir.

Xalq şairi Səməd Vurğun Keçəçi oğlu Məhəmmədin orijinal yaradıcılığına, nikbin, gözəl və məlahətli səsinə yüksək qiymət vermişdir.

Bu bənzərsiz sənətkar ən xoş sözlərə layiqdir. Çünki Azərbaycan musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri var. O, öz səsini və istedadını bütünlüklə xalqının musiqi tərbiyəsinə həsr etmişdir.

Görkəmli xanəndə Keçəçi oğlu Məhəmməd 1940-cı ildə vəfat etmişdir. Onun muğam ifaçılığı bu gün də biz xanəndələr üçün möhtəşəm bir məktəbdir.